# Azərbaycan-Belarus sənədləri imzalanıb

(Əvvəli 1-ci səhifədə).

Belarus Prezidentinin ölkəmizə rəsmi səfəri zamanı imzalanmış sənədlər iqtisadi əməkdaşlığın gücləndirilməsinə, tərəfdaşlıq və dostluq prinsiplərinə söykənir. Səfər zamanı imzalanmış müxtəlif razılaşmalar iqtisadi əməkdaşlıq tellərinin daha da möhkəmləndirilməsi baxımından vacib əhəmiyyət kəsb edir. Xatırladaq ki, 25 mart 2004-cü il tarixindən Azərbaycan ilə Belarus arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiya fəaliyyət göstərir. Ticari-iqtisadi əlaqələrin genişlənməsinin göstəricisi olan əmtəə dövriyyəsinin meyarı da ildən-ilə artmaqdadır. Əmtəə dövriyyəsinin həcminin növbəti ildə 700 milyon dollara çatdırılması nəzərdə tutulub. Azərbaycana Belarusun 250-dən çox müəssisəsinin məhsulları göndərilir. Əməkdaşlığın kooperasiya forması fəal inkişaf edir. Ölkəmizdə "Belarus" markalı traktorlar, yük avtomobilləri, avtokranlar, liftlər, işıq-diod texnologiyaları əsasında işləyən optik cihazlar və lampalar yığılması üzrə istehsal sahələri yaradılmışdır.

Prezident İlham Əliyev iki ölkə arasında əməkdaşlıq əlaqələrini belə xarakterizə edib: «Ölkələrimiz arasında çox yaxın, etimada əsaslanan münasibətlər formalaşıb. Biz həmişə bir-birimizi dəstəkləyirik, bizi maraqlandıran, narahat edən məsələləri səmimi müzakirə edirik. Biz bir-birimizi, necə deyərlər, dəfələrlə sınamışıq. Biz bir-birimiz, həmçinin bütün ölkələr üçün də etibarlı tərəfdaşlarıq. Zənnimcə, bu da Belarusu və Azərbaycanı yaxınlaşdırır. Çünki ölkələrimiz prinsipial siyasətə və sağlam münasibətlərə görə beynəlxalq aləmdə haqlı olaraq nüfuz qazanıblar».



# Qəbələnin nümayəndə heyəti Ukraynada keçirilən "Böyük Rovno. İnvestpotensial" II Beynəlxalq Biznes-Forumda iştirak edib

***Ukraynanın Rovno Vilayət Dövlət Administrasiyası rəhbərliyinin dəvəti ilə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin rəhbərlik etdiyi nümayəndə heyəti qardaş respublikada keçirilən "Böyük Rovno. İnvestpotensial" II Beynəlxalq Biznes-Forumunda iştirak edib.***




Forum çərçivəsində nümayəndə heyətimiz tərəfindən vilayət mərkəzində ikitərəfli görüşlər keçirilib, fikir mübadilələri aparılıb. Rovno Vilayət Dövlət Administrasiyanın başçısı Aleksey Mulyarenko ilə keçirilən görüşdə tərəflər arasında sənaye, mədəniyyət, turizm və digər sahələr üzrə əlaqələrin perspektivləri müzakirə olunub.

Səfər zamanı nümayəndə heyətimiz Rovno vilayətinin sənaye obyektləri, istehsal müəssisələri, tarixi-mədəniyyət abidələri və turizm potensialı ilə yaxından tanış olub.

***"Qəbələ"***.

# «İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda» kitabının təqdimatı olub

Milli Məclisin deputatı, yazıçı, Əməkdar Jurnalist Elmira Axundovanın Moskvanın "Politiçeskaya ensiklopediya" nəşriyyatında rus dilində nəşr edilmiş "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" kitabının noyabrın 30-da "Gülüstan" sarayında təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm xadimləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

# Seminar keçirilmişdir

***Noyabr ayının 30-da «Qafqaz Sport» hotelin akt zalında BMT-nin İnkişaf Proqramı və Fövqəladə Hallar Nazirliyinin birgə təşkilatçılığı ilə «Böyük Qafqaz Regionunda zəif dağ icmaları tərəfindən su və daşqınlar üzrə idarəetməyə iqlim dəyişikliyi riskinin daxil edilməsi» layihəsinin icrasına uyğun olaraq İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarından olan nümayəndələrin iştirakı ilə «İcma əsaslı erkən xəbərdarlıq sistemləri və icmaların su ilə bağlı yarana biləcək problemlərə hazırlığı» mövzusunda seminar keçirilmişdir.***

Tədbiri layihənin aparıcı məsləhətçisi Fərid Abbasov açmışdır. Layihənin rəhbəri Məzahir Əfəndiyev qeyd etmişdir ki, layihənin məqsədi su və daşqınlar üzrə idarəetməni təkmilləşdirməklə, Azərbaycanın Böyük Qafqaz regionundakı dağ icmalarının iqlim dəyişikliyinin doğurduğu su çatışmazlığı və daşqın təhlükələrinə qarşı hazırlıqlı olmasını təmin etməkdir. Bu, qanunvericilik səviyyəsində idarəetmə bazasının təkmilləşdirilməsi, strukturla bağlı olmayan medotları tətbiq etməklə təşkilati potensialın gücləndirilməsi, icmaların daşqınlar üzrə idarəetmədə aktiv iştirak etmələri üçün təlimlərin keçirilməsi və onların səlahiyyətlərinin genişləndirilməsi yolu ilə həyata keçiriləcəkdir.



«Böyük Qafqaz regionunda zəif dağ icmaları tərəfindən su və daşqınlar üzrə idarəetməyə iqlim dəyişikliyi risklərinin daxil edilməsi» layihəsinin məqsədindən danışan Məzahir Əfəndiyev qeyd etmişdir ki, məqsəd su və daşqınlar üzrə idarəetməni təkmilləşdirməklə, Azərbaycanın Böyük Qafqaz regionundakı dağ icmalarının iqlim dəyişikliyinin doğurduğu su çatışmazlığı və daşqın təhlükələrinə qarşı zəifliyini azaltmaqdır. Layihə üçün təklif olunan ərazi Böyük Qafqaz dağlarının cənub yamacını əhatə etməklə bu regionun şimal-qərbdən, Balakən və Zaqatala rayonlarının ərazisində, İsmiayıllı və Qəbələ rayonları yaxınlığında cənub-şərqə doğru uzanır. Bu 10.838.5 km²-dən çox ərazini əhatə edir.

Seminarda rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, FHN-nin Şimal-Qərb Regional Mərkəzinin rəisi Sadiq Bəkirli, beynəlxalq ekspert David Milton, FHN-nin məsul işçisi Gündüz Həmzəyev, beynəlxaldq ekspert Kuan Fermandez çıxış etmişlər. Onlar su problemləri və onunla mübarizə mexanizmləri, icmalarda daşqınlarla bağlı fövqəladə vəziyyətin planlaşdırılması mövzularında iştirakçılara ətraflı məlumat vermişlər.



Seminarı Məzahir Əfəndiyev yekunlaşdırmışdır.

Sonda layihənin mövzularına uyğun videoçarx nümayiş etdirilmişdir.

***«Qəbələ»***.

# 12 dekabr ümummilli lider Heydər Əliyevin anım günüdür

Hərənin bir ömür payı var. Kiminin mənalı, kiminin adi. Heydər Əliyev həsəd aparılacaq bir ömür yaşadı. Ümummilli lider səviyyəsinə yüksəldi. 1940-cı ildə təhlükəsizlik xidməti orqanlarında sıravi əməliyyatçı kimi fəaliyyətə başlayan Heydər Əliyev öz yüksək işgüzarlığı, bacarığı və istedadı sayəsində 1969-cu il iyulun 14-də, o vaxt respublikada ən yüksək ali siyasi vəzifə sayılan Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi. İlk dəfə ölkəmizdə hakimiyyət sükanına xalqının taleyinə tam yiyə durmaq iqtidarına yetişən soydaşımız yüksəldi... 1969-cu ildə keçirilən məşhur avqust plenumu isə Azərbaycanın həyatında mühüm və şərəfli bir mərhələnin başlanğıcını qoydu... 1969-1982-ci illər respublikamızda quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşdü... Ümummilli lider hələ Sovet dövründə böyük uzaqgörənlik və müdrikliklə Azərbaycanın gələcək müstəqilliyinə hərtərəfli zəmin yaratdı...

(Ardı 3-cü səhifədə).